# AZƏRBAYCAN RESPUBLİKASI
# BAKI İNZİBATİ MƏHKƏMƏSİ

AZ-1022 Bakı şəhəri, Nəsimi rayonu, N.Vəzirov küçəsi, 56
www.bakuadministrativecourt.gov.az
Tel: (012) 441-33-90, Faks: (012) 441-60-90
contact@bakuadministrativecourt.gov.az

11 may 2023-cü il

İş №2-1(112)-9880/2023

## MƏHKƏMƏ BİLDİRİŞİ

**İddiaçı:** Əli-Zadə Aydin Arif oğluna
**Ünvan:** AZ 1001, Bakı şəhəri, Y.İbrahimli küçəsi, ev 7, mənzil 7

**Cavabdeh:** Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına
**Ünvan:** Bakı şəhəri, İstiqlaliyyət küçəsi 8

İddiaçı Əli-Zadə Aydin Arif oğlunun cavabdeh Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına qarşı *"inzibati aktın ləğv edilməsi"* tələbinə dair inzibati mübahisələrə dair iş üzrə şifahi icraat qaydasında *Hazırlıq icraatı iclası 23.06.2023-cü il tarixdə, saat 10:00-da* Bakı İnzibati Məhkəməsinin inzibati binasında keçiriləcəkdir (Zal № 3 ).

İş üzrə Sizdə olan bütün sübutların məhkəməyə təqdim edilməsi təklif olunur.

Sizə izah edilir ki Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə (bundan sonra – İPM) və Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə (bundan sonra – MPM) əsasən:

- inzibati məhkəmə icraatının iştirakçıları işin materialları ilə tanış olmaq, onlardan çıxarışlar etmək və surət çıxarmaq, etirazlar vermək, sübutlar təqdim etmək və onların tədqiqində iştirak etmək, işdə iştirak edən digər şəxslərə, şahidlərə, ekspertlərə və mütəxəssislərə suallar vermək, vəsatətlər, o cümlədən də əlavə sübutların tələb edilməsi barədə vəsatətlər vermək, məhkəməyə şifahi və yazılı izahatlar vermək, məhkəmə prosesinin gedişi vaxtı ortaya çıxan bütün məsələlər barədə dəlillər gətirmək və qanunvericilikdə nəzərdə tutulan digər prosessual hüquqlardan istifadə etmək hüququna malikdirlər. Tərəflər mübahisəyə baxılmasını bilavasitə özləri tərəfindən, yaxud mediasiya vasitəsilə bağlanılmış barışıq sazişi ilə, iddiaçının iddiadan imtina etməsi ilə, cavabdehin iddianı qəbul etməsi ilə və ya hüquqi mübahisənin nizamlanması barədə müştərək bəyanatla sona çatdıra bilərlər (İPM - 1.2, 15.2, 19, 61-ci , MPM - 47.2-ci və digər maddələr);

**Sənədin elektron imzalanma tarixi:** 11.05.2023
**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim -** Bəhlul Cəlalov
**Məhkəmənin adı:** Bakı İnzibati Məhkəməsi
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=cb536c7dcbfa47d3bd0ae03ef55a429d

<u>Qeyd:</u> «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

S/N: 003

- inzibati məhkəmə icraatının iştirakçıları inzibati məhkəmə icraatı barədə qanunvericiliklə nəzərdə tutulan, icra olunmaması nəticə yarada bilən hallarda prosessual vəzifələr daşıyırlar və qanunvericiliklə onlara verilmiş prosessual hüquqlardan vicdanla istifadə etməyə, mübahisə ilə bağlı faktiki halların araşdırılmasında və sübutların toplanılmasında məhkəməyə yardım etməyə, yazılı vəsatətlərini, etirazlarını, izahatlarını və bunlarla əlaqədar sənədləri məhkəmə baxışı başlayana qədər təqdim etməyə, yazılı vəsatətlərə, etirazlara, izahatlara onlarda istinad olunan sənədlərin əslini və ya surətini tam və ya çıxarışlar şəklində əlavə etməyə, məhkəmə proses iştirakçısından məhkəmə iclasına şəxsən gəlməyi tələb etdiyi halda proses iştirakçısı məhkəmə iclasına şəxsən gəlməyə (üzrsüz səbəbdən gəlmədiyi hallarda, məhkəmə proses iştirakçısını cərimə edə bilər), məhkəmənin tələb etdiyi sənədləri və ya aktları, habelə zəruri məlumatları təqdim etməyə borcludur (İPM - 1.2, 12.3, 48.2, 48.3, 57, 60-cı , MPM - 47.1, 47.3-cü və digər maddələr).

Məhkəmənin çağırışına gələn şəxs məhkəməyə şəxsiyyətini və səlahiyyətini təsdiq edən sənədi təqdim etməlidir.

Məhkəməyə gəlməməyin səbəbləri barədə iclasın təyin olunduğu vaxtadək məhkəməyə məlumat verilməlidir.

İPM-in 55.3-cü maddəsinə əsasən məhkəmənin tələbinə baxmayaraq, iddiaçı 30 gündən çox müddət ərzində ardıcıl olaraq iş üzrə məhkəmə icraatından yayındıqda, iddia geri götürülmüş sayılır. Belə hallarda məhkəmə iddianın geri götürülmüş sayılması barədə qərardad qəbul edir.

İPM-in 62.3-cü maddəsinə uyğun olaraq Sizə xəbərdarlıq edilir ki, şifahi məhkəmə baxışı ilə bağlı iclasa gəlmədiyiniz halda Sizin iştirakınız olmadan işə baxılması və iş üzrə qərar qəbul edilməsi mümkündür.

Ünvan sahibinin olmadığı təqdirdə məhkəmə bildirişini və ona əlavə edilmiş sənədləri qəbul edən şəxs imkan olan kimi onları ünvan sahibinə verməlidir.

Hakim: Bəhlul Cəlalov

Məhkəmə bildirişini qəbul etdim *(təqdim etmək üçün aldım).*

**XƏBƏRDARLIQ:** Bildiriş və ona əlavələrin *(olduğu təqdirdə)* mətninin tam şəkildə oxunulması vacibdir. Belə ki, bu sənədlərdə istinad edilən hüquqlardan vaxtında istifadə edilməməsi, sonradan bu hüquqlardan istifadə etmək imkanının aradan qalxması ilə nəticələnə bilər.

Məhkəməyə gələrkən COVID-19 pasportunu *(COVID-19-a qarşı peyvənd sertifikatı və ya COVID-19-a qarşı immunitet sertifikatı)* və ya Əks Göstəriş sertifikatını *(COVID-19 infeksiyası əleyhinə peyvəndə Əks Göstəriş sertifikatı)* gətirməyiniz xahiş olunur.

**Sənədin elektron imzalanma tarixi:** 11.05.2023
**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim -** Bəhlul Cəlalov
**Məhkəmənin adı:** Bakı İnzibati Məhkəməsi
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=cb536c7dcbfa47d3bd0ae03ef55a429d

**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

S/N: 003

ID: 2346714


**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI İNZİBATİ MƏHKƏMƏSİ**

AZ-1022 Bakı şəhəri, Nəsimi rayonu, N.Vəzirov küçəsi, 56
www.bakuadministrativecourt.gov.az

Tel: (012) 441-33-90, Faks: (012) 441-60-90
contact@bakuadministrativecourt.gov.az


İş № 2-1(112)-9880/2023

11.05.2023-cü il

# S Ə R Ə N C A M

Mən, Bakı İnzibati Məhkəməsinin hakimi Cəlalov Bəhlul Məmmədcəfər oğlu iddiaçı Əli-Zadə Aydin Arif oğlunun cavabdeh Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına qarşı *"inzibati aktın ləğv edilməsi"* tələbinə dair mübahisə ilə bağlı işin mahiyyəti üzrə qərar qəbul olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 47 və 49-cu maddələrini rəhbər tutaraq,

**SƏRƏNCAM VERİRƏM:**

1. İddia ərizəsi və ona əlavə edilmiş sənədlərin surəti iş üzrə cavabdeh Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına təqdim edilsin və cavabdehdən *23.06.2023-cü il tarixədək* iddiaya qarşı öz münasibətini (etirazını) yazılı şəkildə məhkəməyə bildirmək tələb olunsun.
2. Azərbaycan Respublikası İnzibati Prosessual Məcəllənin 49-cu maddəsinə əsasən, işin hallarını, mübahisənin vəziyyətini və iddianın mümkünlüyü ilə bağlı məsələni müzakirə (izah) etmək üçün *hazırlıq icraatı ilə əlaqədar məhkəmə iclası 23.06.2023-cü il tarixə saat 10:00-a* təyin edilsin.
3. Sərəncam iddiaçı Əli-Zadə Aydin Arif oğluna məlumat üçün göndərilsin.
4. Tərəfə izah edilsin ki, hüquqi mübahisəni barışıq yolu ilə nizama salmaq (həll etmək) hüququ var və buna onun niyyəti olduğu təqdirdə, habelə barışıq sazişinin bağlanmasına yardıma ehtiyacı varsa öz mülahizəsini yazılı surətdə məhkəməyə bildirsin.
5. Sərəncamdan şikayət verilə bilməz.

**Hakim Bəhlul Cəlalov**

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim -** Bəhlul Cəlalov
**Məhkəmənin adı:** Bakı İnzibati Məhkəməsi
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=93797e1cbd9b49869c2bb273841abac4

**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

S/N: 002

# AZƏRBAYCAN RESPUBLİKASI
# BAKI İNZİBATİ MƏHKƏMƏSİ

AZ-1022 Bakı şəhəri, Nəsimi rayonu, N.Vəzirov küçəsi, 56
www.bakuadministrativecourt.gov.az
Tel: (012) 441-33-90, Fax: (012) 441-60-90
contact@bakuadministrativecourt.gov.az

İş № 2-1(112)-9880/2023

11 may 2023-cü il

(*Məlumat üçün:*) **İddiaçı:** Əli-Zadə Aydin Arif oğluna
**Ünvan:** AZ 1001, Bakı şəhəri, Y.İbrahimli küçəsi, ev 7, mənzil 7

**Cavabdeh:** Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına
**Ünvan:** Bakı şəhəri, İstiqlaliyyət küçəsi 8

İddiaçı Əli-Zadə Aydin Arif oğlunun cavabdeh Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına qarşı *"inzibati aktın ləğv edilməsi"* tələbinə dair iş üzrə Bakı İnzibati Məhkəməsinin 11.05.2023-cü il tarixli, 2-1(112)-9880/2023-002 saylı sərəncamı icra edilməsi üçün sizə göndərilir.

*Qoşma:* sərəncam-1 vərəq ( hər ünvana)
iddia ərizəsinin və ona əlavə olunmuş
sənədlərin surəti ( cavabdehə)

**Hakim Bəhlul Cəlalov**

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim -** Bəhlul Cəlalov
**Məhkəmənin adı:** Bakı İnzibati Məhkəməsi
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=c93152450dc44bc3abe1d32d65244ed6

__Qeyd:__ «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

S/N: 002